“Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı”nın və “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. üç ay müddətində:

3.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. beynəlxalq norma və prinsiplər, habelə mütərəqqi xarici təcrübə nəzərə alınmaqla “Aviasiya haqqında” Azərbaycan Respublikasının yeni qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.3. “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası”nın 2.1.6-cı yarımbəndində nəzərdə tutulmuş uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin təşkili qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.4. həmin Qaydanın 5.2.2-ci yarımbəndində nəzərdə tutulmuş uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.5. həmin Qaydanın 9.2-ci bəndində nəzərdə tutulmuş aviasiya hadisələrinin araşdırılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.6. həmin Qaydanın 10.2-ci bəndində nəzərdə tutulmuş müfəttiş heyətinin peşəkar hazırlığının təşkili və onların ixtisaslarının artırılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.7. “Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı”nın 10.1.1-ci yarımbəndinə uyğun olaraq, hava gəmilərinin qeydiyyatı qaydasını, habelə mülki pilotsuz uçan aparat sistemlərinin istismarına dair qaydaları Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş “Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı”nın və bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş “Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası”nın icrasını təmin etmək üçün zəruri tədbirlər görsün;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi:[1]

4.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın icrasını təmin etmək üçün zəruri tədbirlər görsün;

4.2. Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 iyun 2019-cu il
№ 756

Azərbaycan Respublikası Prezidentinin
2019-cu il tarixli 27 iyun 756 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİNƏ DAİR DÖVLƏT PROQRAMI

1. Giriş

Uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq standartların tələbləri, hava hərəkətinin intensivliyinin və həcminin sürətlə artması, mövcud hava gəmilərinin yenilənməsi və müasir tələblərə cavab verən aviasiya mütəxəssisləri hazırlanmasının vacibliyi, hava hərəkətinə xidmət, hava gəmilərinin, hava limanı və aerodromların istismarı zamanı dövlət tərəfindən məqbul təhlükəsizlik səviyyəsinin müəyyən olunması və təmin edilməsi məqsədilə uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramının (bundan sonra - Dövlət Proqramı) qəbulunu zəruri etmişdir.

Dövlət Proqramı "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və mülki aviasiya sahəsində digər beynəlxalq təşkilatların standartlarına və tövsiyə olunan təcrübəsinə, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən hazırlanmışdır.

Mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyi dedikdə hava nəqliyyatında şəxsin həyat və sağlamlığına və ya əmlakına ziyan vurulması riskinin məqbul həddə qədər azaldılması, təhlükə mənbələrinin aşkarlanmasını, risklərə daimi nəzarət vasitəsilə onların bu səviyyədə və ya daha aşağı səviyyədə saxlanılması nəzərdə tutulur.

Dövlət Proqramı mülki aviasiya sahəsində normativ hüquqi tənzimləmənin təkmilləşdirilməsini, mülki aviasiyanın təhlükəsiz inkişafı ilə bağlı prioritetlər sisteminin formalaşdırılıb həyata keçirilməsini, uçuşların həyata keçirilməsinə cəlb olunmuş dövlət qurumlarında uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemlərinin qiymətləndirilməsini nəzərdə tutur.

Dövlət Proqramı həmçinin beynəlxalq mülki aviasiya təşkilatları və Dövlətlərarası Aviasiya Komitəsinin fəaliyyəti çərçivəsində Müstəqil Dövlətlər Birliyi ölkələri ilə regional əməkdaşlığın genişləndirilməsini də nəzərdə tutur.

Sərnişin və yük daşınmasında uçuşların təhlükəsizliyinin təmin edilməsi dövlətin prioritet vəzifələrindən biri olduğundan, Dövlət Proqramı uçuşların təhlükəsizlik səviyyəsinin daha da yüksəldilməsinə yönəlmiş strateji məqsədləri, vəzifələri, prinsipləri, əsas fəaliyyət istiqamətlərini müəyyən edir.

2. Dövlət Proqramının tətbiq dairəsi

Dövlət Proqramının müddəaları Azərbaycan Respublikasında mülki aviasiyanın fəaliyyətinə şamil olunur.

3. Dövlət Proqramının məqsədi, əsas vəzifələri və prinsipləri

3.1. **Dövlət Proqramının məqsədləri aşağıdakılardır:**

3.1.1. aviasiya sahəsində uçuşların təhlükəsizliyinin idarə edilməsi strategiyasının (mülki aviasiyanın təhlükəsiz inkişafı ilə bağlı prioritetlər sisteminin formalaşdırılması və tətbiqi) müəyyən edilməsi və onun həyata keçirilməsi üçün mülki aviasiya sahəsinə cavabdeh olan dövlət orqanlarının və qurumlarının fəaliyyətinin əlaqələndirilməsi;

3.1.2. uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi ilə bağlı beynəlxalq standartların və tövsiyə olunan təcrübənin səmərəli tətbiqinin təmin edilməsi;

3.1.3. uçuşların təhlükəsizliyinin yüksək səviyyəsinin əldə edilməsi, aviasiya hadisələrinin və insidentlərinin sayının azaldılması üçün risklərin idarə edilməsi prosesinin təşkili;

3.1.4. Azərbaycan Respublikasında mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin məqbul hesab edilən səviyyəsinə nail olmaq üçün təhlükə mənbələrinin müəyyənləşdirilməsi və risklərə nəzarət vasitəsilə uçuşların təhlükəsizliyinin yüksək səviyyədə olmasının təmin edilməsi;

3.1.5. Azərbaycan Respublikasında hava hərəkətinin intensivliyinin və həcminin əhəmiyyətli artımının proqnozlaşdırılması, mövcud hava gəmilərinin yenilənməsi və müasir tələblərə cavab verən aviasiya mütəxəssislərinin hazırlanması ilə əlaqədar olaraq, milli səviyyədə bu sahənin gələcək inkişafının planlı, təhlükəsiz, səmərəli idarə edilməsi.

3.2. **Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:**

3.2.1. Azərbaycan Respublikasında mülki aviasiya, o cümlədən uçuşların təhlükəsizliyi sahəsində normativ hüquqi bazanın formalaşdırılmasının təmin edilməsi;

3.2.2. uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün risklərin idarə edilməsi funksiyalarının yerinə yetirilməsi sahəsində aidiyyəti dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi;

3.2.3. Azərbaycan Respublikasında uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində səmərəliliyin artırılması məqsədilə ümumi göstəricilərin monitorinqi və qiymətləndirilməsi;

3.2.4. uçuşların təhlükəsizliyinin idarə olunması sahəsində dövlətin funksiyalarının əlaqələndirilməsi və təkmilləşdirilməsi.

3.3. **Dövlət Proqramının əsas prinsipləri aşağıdakılardır:**

3.3.1. uçuşların təhlükəsizliyinin təmin edilməsində qabaqlayıcı tədbirlər görülməsi və sistemli yanaşmanın təmin edilməsi;

3.3.2. risklərin qiymətləndirilməsi və idarə olunması;

3.3.3. uçuşların təhlükəsizliyinin təmin edilməsində süründürməçiliyin aradan qaldırılması;

3.3.4. səmərəlilik, mütənasiblik, dəqiqlik və dayanıqlılıq;

3.3.5. mülki aviasiya sahəsində əsas insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi;

3.3.6. Azərbaycan Respublikasının uçuşların təhlükəsizliyi sisteminin beynəlxalq sistemlərə inteqrasiyası;

3.3.7. uçuşların təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi, aviasiya hadisələri və insidentlərinin sayının azaldılması üçün risklərin idarə edilməsi prosesinin təşkili.

4. Qanunvericilik aktları

4.1. **Mülki aviasiya sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlər:**

4.1.1. "Beynəlxalq mülki aviasiya haqqında" Konvensiya;

4.1.2. "Beynəlxalq mülki aviasiya haqqında" Konvensiyaya 1 - 19-cu Əlavələr və onların qoşmalarından irəli gələn tələblər;

4.1.3. "Beynəlxalq hava daşımalarının bəzi qaydalarının unifikasiyası haqqında" Konvensiya;

4.1.4. “Hava gəmiləri üzərində hüquqların beynəlxalq miqyasda tanınması haqqında” Konvensiya;

4.1.5. “Xarici hava gəmilərinin yer səthindəki üçüncü şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi haqqında” Konvensiya;

4.1.6. “Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlər əleyhinə mübarizə haqqında” Konvensiya;

4.1.7. “Müqavilə üzrə daşıyıcı olmayan şəxslərin həyata keçirdikləri beynəlxalq hava daşımalarının bəzi qaydalarının unifikasiyası haqqında” Varşava Konvensiyasına Əlavə Konvensiya;

4.1.8. “Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında” Konvensiya;

4.1.9. “Hava gəmilərinin qanunsuz zəbt edilməsinə qarşı mübarizə haqqında” Konvensiya;

4.1.10. “Plastik partlayıcı maddələri aşkar etmək məqsədilə onlara nişan vurulması haqqında” Konvensiya;

4.1.11. “Beynəlxalq hava əlaqələri zamanı tranzit haqqında” Saziş;

4.1.12. 1929-cu il oktyabrın 12-də Varşavada imzalanmış “Beynəlxalq hava daşımalarının bəzi qaydalarının unifikasiyası haqqında Konvensiya”ya düzəlişlər haqqında” Protokol;

4.1.13. “Çikaqo Konvensiyasının üç dildə tərtib edilmiş mətninin mötəbərliyi haqqında” Protokol;

4.1.14. “Çikaqo Konvensiyasının dörd dildə tərtib edilmiş mətninin mötəbərliyi haqqında” Protokol;

4.1.15. 1929-cu il oktyabrın 12-də Varşavada imzalanmış “Beynəlxalq hava daşımalarının bəzi qaydalarının unifikasiyası haqqında Konvensiya”ya 1-4 nömrəli Əlavə Protokollar;

4.1.16. “Beynəlxalq mülki aviasiya haqqında Konvensiya”nın dəyişdirilməsinə aid 1977-ci il 30 sentyabr tarixli Protokol;

4.1.17. “Beynəlxalq mülki aviasiya haqqında Konvensiya”nın dəyişdirilməsinə aid 1980-ci il 6 oktyabr tarixli Protokol;

4.1.18. “Beynəlxalq mülki aviasiya haqqında Konvensiya”nın dəyişdirilməsinə aid 1984-cü il 10 may tarixli Protokol;

4.1.19. “Xarici hava gəmilərinin yer səthindəki üçüncü şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi haqqında Konvensiya”nın dəyişdirilməsi haqqında Protokol;

4.1.20. “Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlər əleyhinə mübarizə haqqında Konvensiya”nı tamamlayan Beynəlxalq mülki aviasiyaya xidmət göstərən hava limanlarında qanunsuz zorakılıq hərəkətləri əleyhinə mübarizə haqqında Protokol.

4.2. **Milli qanunvericilik aktları:**

4.2.1. Azərbaycan Respublikasının Konstitusiyası;

4.2.2. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanunu;

4.2.3. “Azərbaycan Respublikasında *rəqəmsal inkişaf və nəqliyyat* sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı;[2]

4.2.4. “Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə”nin* təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanı;[3]

4.2.5. “Azərbaycan Respublikasının “Mülki aviasiya haqqında” Beynəlxalq Konvensiyaya qoşulması haqqında” Azərbaycan Respublikası Milli Məclisinin qərarı;

4.2.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 22 mart tarixli 87 nömrəli qərarı ilə təsdiq edilmiş "Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi Qaydası";

4.2.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmiş "Aviasiya qəzası və ya insidenti barədə məlumatın verilməsi Qaydası";

4.2.8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Aviasiya qəzalarını və insidentlərini araşdıran Komissiyanın fəaliyyət göstərməsi Qaydaları";

4.2.9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 fevral tarixli 32 nömrəli qərarı ilə təsdiq edilmiş "Mülki aviasiya hava gəmilərinin uçuşlarının təhlükəsizliyinə dair məlumatların toplanması və işlənməsi sistemlərində informasiyanın qorunması Qaydaları";

4.2.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının hava məkanından istifadə Qaydaları".

5. Dövlət Proqramının əsas fəaliyyət istiqamətləri

5.1. Bu Dövlət Proqramı ilə müəyyən edilmiş əsas vəzifələrə uyğun olaraq, mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin aşağıdakı əsas istiqamətlərdə inkişaf etdirilməsi nəzərdə tutulur:

5.1.1. müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi;

5.1.2. uçuşların təhlükəsizliyi ilə bağlı informasiya resurslarının işlənməsində müasir texnologiyaların tətbiqi;

5.1.3. aviasiya hadisələri və insidentləri barədə analitik informasiyanın müntəzəm olaraq toplanmasının və yayılmasının beynəlxalq, dövlət və yerli səviyyədə təşkili;

5.1.4. uçuşların təhlükəsizliyinin təmin edilməsi işində iştirak edən subyektlərin fəaliyyəti üçün zəruri şərait yaradılması və onların maddi-texniki təchizatının yaxşılaşdırılması;

5.1.5. uçuşların təhlükəsizliyi sahəsində kadr hazırlığı işinin təkmilləşdirilməsi və kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi;

5.1.6. uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

5.1.7. uçuşların təhlükəsizliyi ilə bağlı risklərin idarə edilməsi;

5.1.8. aviasiya texnikasının səmərəli istifadə və istismarının təmin edilməsi;

5.1.9. aviasiya subyektlərinin hüquqi və fiziki şəxslərə göstərdikləri xidmətlərin ICAO-nun tələblərinə uyğunluğunun təmin edilməsi.

6. Uçuşların təhlükəsizliyinin təmin olunması sahəsində dövlətin vəzifələri

6.1. Uçuşların təhlükəsizliyinin təmin olunması ilə bağlı dövlətin vəzifələri aşağıdakılardır:

6.1.1. uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.2. uçuşların təhlükəsizliyi üzrə Dövlət Proqramının qəbulu və icrası ilə bağlı tədbirlərin həyata keçirilməsi;

6.1.3. uçuşların təhlükəsizliyinin təmin edilməsinə, beynəlxalq standartlara və tövsiyə olunan beynəlxalq təcrübəyə uyğunluğuna nəzarətin həyata keçirilməsi;

6.1.4. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda uçuşların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi.

7. Əməkdaşlıq, əlaqələndirmə və məlumat mübadiləsi

7.1. İnformasiya əlaqəsi aşağıdakı şəkildə həyata keçirilir:

7.1.1. uçuşların təhlükəsizliyi ilə bağlı tədbirlərin səmərəliliyini artırmaq üçün beynəlxalq, dövlət və yerli səviyyələrdə analitik məlumatların toplanması müntəzəm olaraq təşkil edilir və bu məlumatlardan istifadə etməklə uçuşların təhlükəsizliyinin yüksək səviyyədə saxlanılması üçün müvafiq tədbirlər görülür;

7.1.2. aviasiya hadisələri və insidentlərinə məruz qalmış hava gəmiləri haqqında ilkin informasiyanın toplanması və aidiyyəti üzrə ötürülməsi məlumatlandırma sxeminə əsasən həyata keçirilir.

7.2. Uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində çoxtərəfli və ikitərəfli əməkdaşlıq aşağıdakı şəkildə həyata keçirilir:

7.2.1. uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq beynəlxalq standartların təkmilləşdirilməsi. insidentlərin nizamlanmasında digər dövlətlərin aidiyyəti orqanları ilə qarşılıqlı əlaqələrin yaxşılaşdırılması, xarici təcrübənin öyrənilməsi və ondan istifadə məqsədilə həyata keçirilir;

7.2.2. uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə çoxtərəfli əməkdaşlıq ICAO. Avropa Mülki Aviasiya Konfransı (bundan sonra - ECAC), həmçinin Azərbaycan Respublikasının tamhüquqlu üzv olduğu digər beynəlxalq təşkilatlar çərçivəsində, müvafiq beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə uyğun olaraq həyata keçirilir;

7.2.3. ICAO və ECAC çərçivəsində beynəlxalq əməkdaşlıq aşağıdakı istiqamətlərdə həyata keçirilir:

1. uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq konvensiyaların və çoxtərəfli sazişlərin işlənib hazırlanması;

2. beynəlxalq standartların və tövsiyə edilən təcrübənin təkmilləşdirilməsi;

3. ICAO və ECAC-ın uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində daimi əsaslarla fəaliyyət göstərən orqanlarının işində iştirak;

4. uçuşların təhlükəsizliyinə dair normativ hüquqi aktların təkmilləşdirilməsi üzrə təkliflərin verilməsi;

7.2.4. uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə xarici dövlətlərlə ikitərəfli əməkdaşlıq hava nəqliyyatı haqqında hökumətlərarası sazişlərə əsaslanır.

7.2.5. ikitərəfli əməkdaşlıq çərçivəsində bağlanmış sazişlərlə aşağıdakı məsələlər tənzimlənir:

1. uçuşların təhlükəsizliyinə məsul şəxslərin adları, ünvanları, telefon, teleks və faks nömrələri, avtomatik fiksasiyalı teleqraf rabitəsinin (AFTN) ünvanı göstərilməklə onlar arasında əlaqə yaradılması qaydası;

2. qabaqlayıcı xarakterli cari məlumat daxil olduqda, qarşılıqlı fəaliyyətin təşkili qaydası;

3. uçuşların təhlükəsizliyi ilə bağlı məlumat və təcrübə mübadiləsi.

8. Dövlət Proqramının maliyyə təminatı

8.1. Uçuşların təhlükəsizliyinin təmin edilməsi xərclərinin Azərbaycan Respublikasının qanunlarına, beynəlxalq qayda və təcrübəyə uyğun olaraq aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

8.1.1. Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi üçün müvafiq il üzrə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait; [4]

8.1.2. yerli və xarici investisiyalar;

8.1.3. beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaiti;

8.1.4. büdcədənkənar fondlar;

8.1.5. qanunla qadağan olunmayan digər mənbələr.

8.2. Hava limanlarının istismarçıları uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün cari xərcləri həmin hava limanlarının xidmətindən istifadə edən aviasiya müəssisələrinin ödədikləri yığımlar hesabına təmin edirlər.

8.3. Hava limanlarının istismarçıları aviasiya daşıyıcılarının və digər müəssisə, idarə və təşkilatların sifarişlərinə əsasən uçuşların təhlükəsizliyi ilə bağlı əlavə tədbirlər həyata keçirildiyi hallarda əlavə yığım tətbiq etmək hüququna malikdirlər.

8.4. Uçuşların təhlükəsizliyinin təmin edilməsinə görə yığımlar, sərnişinlərin sayı və (və ya) hava gəmisinin çəkisi nəzərə alınmaqla, beynəlxalq standartlara uyğun tətbiq edilir.

8.5. Uçuşların təhlükəsizliyinin təmin edilməsinə gərə yığımlardan bu Dövlət Proqramı ilə müəyyən edilmiş məqsədlər üçün istifadə edilir.

9. Gözlənilən nəticələr

9.1. Dövlət Proqramının yerinə yetirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

9.1.1. mülki aviasiya sahəsində dövlət siyasətinin möhkəmlənməsi, o cümlədən ICAO, ECAC və digər aidiyyəti beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların icrasına nəzarətin artırılması;

9.1.2. mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin, müntəzəmliyinin və səmərəliliyinin təmin edilməsi;

9.1.3. mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyi ilə bağlı yeni qayda, prosedur və tədbirlərin hazırlanması və tətbiqi;

9.1.4. uçuşların təhlükəsizliyinin təmin edilməsinə cəlb edilmiş aidiyyəti dövlət qurumları, müəssisə, idarə və təşkilatların, o cümlədən xarici hava gəmiləri istismarçılarının bu Dövlət Proqramının tələblərini daha səmərəli yerinə yetirməsi;

9.1.5. uçuşların təhlükəsizliyinə birbaşa və dolayı yolla cəlb edilmiş aidiyyəti dövlət qurumlarına təqdim edilmiş ilkin məlumatların təhlili nəticəsində sadələşdirilmiş və səmərəli nəzarət prosedurlarının tətbiqinin təmin edilməsi;

9.1.6. bu Dövlət Proqramının icrasına cəlb olunmuş aidiyyəti dövlət qurumlarının nümayəndələrinin mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin təmin edilməsinə cəlb olunması;

9.1.7. mülki aviasiya sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin Dövlət Proqramının müddəalarına dair biliklərinin artırılması və onların bu Dövlət Proqramının tələblərini yerinə yetirməsinin təmin edilməsi;

9.1.8. Azərbaycan Respublikasının hava limanlarında həyata keçirilən uçuşların təhlükəsizliyi ilə bağlı tədbirlərin ICAO-nun standartlarına və tövsiyə olunan təcrübəsinə uyğunlaşdırılması.

Dövlət Proqramının həyata keçirilməsi üzrə
TƏDBİRLƏR PLANI

Sıra №-si	Tədbirin adı	İcraçı orqanlar	İcra müddəti (illər üzrə)
1	2	3	4
10.1. Uçuşların təhlükəsizliyi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi			
10.1.1.	Aviasiya sahəsində, o cümlədən uçuşların təhlükəsizliyi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması	Nazirlər Kabineti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi	2019-2021
10.1.2.	Aviasiya subyektləri tərəfindən uçuşların təhlükəsizliyi sahəsində prosedur qaydaların qəbul edilməsi	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi	2019-2020
10.1.3	Uçuşların təhlükəsizliyi ilə bağlı məcburi və könüllü qaydada verilməli olan məlumatlara dair normativ hüquqi aktların hazırlanması	Dövlət Mülki Aviasiya Agentliyi	2019-2021
10.2. Uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində kadr siyasəti			
10.2.1.	İxtisaslaşmış texniki personalın hazırlanması və uçuşların təhlükəsizliyinə cəlb edilməsi	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi	2019-2020
10.2.2.	Aviasiya personalı üçün təlimlərin təşkili	*Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi	mütəmadi
10.3. Uçuşların təhlükəsizliyi sahəsində nəzarət			
10.3.1.	Uçuşların təhlükəsizliyinin təmin edilməsinin davamlı monitoringi	*Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi	mütəmadi
10.3.2.	Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün müfəttiş yoxlamalarının həyata keçirilməsi	Dövlət Mülki Aviasiya Agentliyi	mütəmadi
10.4. Uçuşların təhlükəsizliyi sahəsində risklərin idarə olunması			
10.4.1.	Şəhadətnamə, sertifikat və uçuşa icazələrin verilməsi mexanizminin təkmilləşdirilməsi	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Mülki Aviasiya Agentliyi	2019-2021
10.4.2.	Uçuşların təhlükəsizliyinin təmin edilməsi sisteminin təkmilləşdirilməsi üzrə öhdəliklərin	Dövlət Mülki Aviasiya Agentliyi, xidmət təminatçıları	2019-2022

	icrası		
10.4.3.	Aviasiya hadisələri və insidentlərinin araşdırılması	Dövlət Mülki Aviasiya Agentliyi, Baş Prokurorluq	mütəmadi
10.4.4.	Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün təhlükəli amillərin aşkar edilməsi və risklərin qiymətləndirilməsi	Dövlət Mülki Aviasiya Agentliyi	mütəmadi
10.4.5.	Uçuşların təhlükəsizliyi sahəsində nəzarətin təmin edilməsi və aşkar edilən nöqsanların aradan qaldırılması	*Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi. Dövlət Mülki Aviasiya Agentliyi	mütəmadi
10.4.6.	Uçuşların təhlükəsizliyinin sahəsində effektivliyin artırılması üçün tədbirlər görülməsi	Dövlət Mülki Aviasiya Agentliyi	mütəmadi
10.5. Uçuşların təhlükəsizliyi sahəsində məlumatlandırma			
10.5.1.	Uçuşların təhlükəsizliyinə dair məlumatların toplanması, təhlili və mübadiləsi	Dövlət Mülki Aviasiya Agentliyi, xidmət təminatçıları	mütəmadi
10.5.2.	Aviasiya hadisələri haqqında məcburi və könüllü verilməli olan məlumatların vahid sisteminin yaradılması	Dövlət Mülki Aviasiya Agentliyi	2019-2020

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 31 may 2022-ci il tarixli **1695** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 2 iyun 2022-ci il, № 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 463)**
2. 3 sentyabr 2022-ci il tarixli **1839** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 3 sentyabr 2022-ci il, "Xalq" qəzeti, 4 sentyabr 2022-ci il, № 190, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 9, maddə 1028)**
3. 5 avqust 2023-cü il tarixli nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 avqust 2023-cü il, "Xalq" qəzeti, 6 avqust 2023-cü il, № 165)**

FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 31 may 2022-ci il tarixli **1695** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 2 iyun 2022-ci il, № 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 463)** ilə 4-cü hissədə "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri "**Rəqəmsal İnkişaf və Nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.

[2] 3 sentyabr 2022-ci il tarixli **1839** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 3 sentyabr 2022-ci il, "Xalq" qəzeti, 4 sentyabr 2022-ci il, № 190, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 9, maddə 1028)** ilə "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 4.2.3-cü yarımbəndində "**nəqliyyat, rabitə və yüksək texnologiyalar**" sözləri "**rəqəmsal inkişaf və nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.

[3] 5 avqust 2023-cü il tarixli nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 avqust 2023-cü il, "Xalq" qəzeti, 6 avqust 2023-cü il, № 165)** ilə "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 4.2.4-cü yarımbəndində "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında əsasnamələrin**" sözləri "**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin**" sözləri ilə əvəz edilmişdir.

[4] 31 may 2022-ci il tarixli **1695** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 2 iyun 2022-ci il, № 114, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 463)** ilə "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 8.1.1-ci, 10.2.2-ci, 10.3.1-ci və 10.4.5-ci yarımbəndlərində "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri "**Rəqəmsal İnkişaf və Nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.